

# «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 avqust tarixli, 389 nömrəli Fərmanında əlavələr və dəyişikliklər edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Azərbaycan Respublikası Prezidentinin bəzi Fərmanlarına əlavələr və dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 avqust tarixli, 812 nömrəli Fərmanının 2.1-ci bəndinin icrası ilə əlaqədar **qərara alıram:**

«Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 avqust tarixli, 389 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 8, III kitab, maddə 612; 2001-ci il, № 7, maddə 462, № 10, maddə 640, № 12, maddə 755; 2002-ci il, № 1, maddə 49, № 5, maddələr 260, 275, № 8, maddələr 478, 484, 486; 2003-cü il, № 6, maddə 299, № 8, maddə 434, № 9, maddə 478, № 10, maddələr 546, 547, 560, 571, 582; 2004-cü il, № 1, maddələr 19, 26, № 3, maddələr 138, 141, № 4, maddə 235, № 5, maddələr 340, 341, 343, 345, 346, № 8, maddələr 607, 608, № 11, maddə 909, № 12, maddə 1005; 2005-ci il, № 2, maddələr 67, 69, № 4, maddələr 299, 303, № 8, maddə 702, № 9, maddələr 801, 802, № 12, maddə 1101; 2006-cı il, № 2, maddə 83, № 4, maddələr 321, 322, № 5, maddə 407, № 7, maddə 590, № 8, maddələr 662, 663, 674, 675, 679, № 9, maddə 743, № 11, maddələr 942, 945; 2007-ci il, № 1, maddə 11, № 2, maddə 87, № 3, maddə 230, № 7, maddə 715, № 8, maddələr 767, 769, № 11, maddələr 1110, 1116, 1120, № 12, maddə 1227; 2008-ci il, № 1, maddə 7, № 3, maddə 186, № 6, maddələr 504, 507, № 7, maddə 617, № 8, maddə 713, № 9, maddə 798, № 10, maddə 894, № 11, maddələr 969, 971, 980, № 12, maddələr 1060, 1061, 1062, 1065; 2009-cu il, № 3, maddə 163, № 4, maddə 226; Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 29 may tarixli, 98 nömrəli Fərmanı) aşağıdakı əlavələr və dəyişikliklər edilsin:

1.1. 2.1-ci bənddə *«Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti»* sözlərindən əvvəl *«Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi,»* sözləri əlavə edilsin;

1.2. 2.3-cü bənddə *«321.1-ci,»* sözləri çıxarılsın;

1.3. 2.5-ci bənddə *«və 320-ci maddələrində»* sözləri *«maddəsində»* sözü ilə əvəz edilsin;

1.4. 2.7-ci bənddə *«Nəqliyyat Nazirliyi»* sözləri *«Fövqəladə Hallar Nazirliyi»* sözləri ilə əvəz edilsin;

1.5. 2.8-ci bənddən *«155.1.9-cu,»* sözləri çıxarılsın;

1.6. 2.16-cı, 3.15-ci və 3.17-ci bəndlərdə *«Dövlət Sənayedə İşlərin Təhlükəsiz Görülməsinə Nəzarət və Dağ-Mədən Nəzarəti Komitəsi»* sözləri *«Fövqəladə Hallar Nazirliyi»* sözləri ilə əvəz edilsin;

1.7. 3.1-ci bənddə *«321-322-ci»* sözləri *«322-ci»* sözləri ilə əvəz edilsin;

1.8. 3.3-cü bənddə *«156-160-cı»* sözləri *«156-158-ci, 160-cı»* sözləri ilə, *«298-301-ci»* sözləri *«298-300-cü, 301.0.1-301.0.6-cı, 301.0.9-301.0.13-cü»* sözləri ilə əvəz edilsin;

1.9. 3.5-ci bənddə *«71-ci»* sözləri çıxarılsın, *«85-ci»* sözləri *«85.0.3-cü, 85.0.5-85.0.7-ci»* sözləri ilə əvəz edilsin;

1.10. 3.7-ci bənddən *«107-ci,»* sözləri çıxarılsın, *«76-84-1-ci»* sözləri *«78-84-1-ci»* sözləri ilə əvəz edilsin;

1.11. 3.16-cı bənddən *«114.2-ci,»* və *«320-ci»* sözləri çıxarılsın;

1.12. 3.21-ci bənddə *«Azərbaycan Respublikasının müvafiq nazirliyi yaradılanadək Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi»* sözləri *«Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi»* sözləri ilə əvəz edilsin;

1.13. 3.34-cü bənddə *«Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi»* sözləri *«Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi»* sözləri ilə əvəz edilsin;

1.14. 3.47-ci bənddə *«161-ci»* sözləri *«161.2-ci»* sözləri ilə əvəz edilsin;

1.15. aşağıdakı məzmunda 2.35-ci, 2.36-cı, 2.37-ci, 3.58-ci, 3.59-cu, 3.60-cı, 3.61-ci, 3.62-ci, 3.63-cü, 3.64-cü və 3.65-ci bəndlər əlavə edilsin;

*«2.35. həmin Məcəllənin 155.1.9-cu maddəsində «müvafiq icra hakimiyyəti orqanı» dedikdə, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur;*

*2.36. həmin Məcəllənin 320-ci maddəsində «müvafiq icra hakimiyyəti orqanları» dedikdə, Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi və Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi nəzərdə tutulur;*

*2.37. həmin Məcəllənin 321.1-ci maddəsində «müvafiq icra hakimiyyəti orqanı» dedikdə, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.*

*3.58. həmin Məcəllənin 71-ci, 76-cı, 85.0.1-ci, 85.0.2-ci, 85.0.8-ci, 85.0.9-cu, 85.0.10-cu maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə*

*Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi öz səlahiyyətləri daxilində baxırlar;*

*3.59. həmin Məcəllənin 77-ci, 85.0.4-cü, 107-ci, 114.2-ci, maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi baxır;*

*3.60. həmin Məcəllənin 144-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası öz səlahiyyətləri daxilində baxırlar;*

*3.61. həmin Məcəllənin 155.1.9-cu və 159-cu maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi öz səlahiyyətləri daxilində baxırlar;*

*3.62. həmin Məcəllənin 161.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi öz səlahiyyətləri daxilində baxırlar;*

*3.63. həmin Məcəllənin 301.0.7-ci və 301.0.8-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi öz səlahiyyətləri daxilində baxırlar;*

*3.64. həmin Məcəllənin 320-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi və Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi öz səlahiyyətləri daxilində baxırlar;*

*3.65. həmin Məcəllənin 321-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi öz səlahiyyətləri daxilində baxırlar.»*

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 22 iyul 2009-cu il***

***№ 137***